**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNVİERSİTETİ**

*Əlyazması hüququnda*

**SAYAD ÇİNGİZ QIZI MEHTİZADƏ**

# AZƏRBAYCANIN MƏDƏNİ HƏYATI QƏRBİ AVROPA SƏYYAHLARININ GÜNDƏLİKLƏRİNDƏ (XV-XVII ƏSRLƏR)

İxtisas: 5502.01 – Ümumi tarix

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

# AVTOREFERATI

**Bakı – 2015**

**Dissertasiya işi Bakı Dövlət Universiteti "Qədim dünya və orta əsrlər tarixi" kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:**
Əməkdar elm xadimi,
Dövlət Mükafatı Laureatı,
AMEA-nın müxbir üzvü,
professor **Y.M.MAHMUDOV**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru,
professor **Z.M.HƏSƏNALIYEV**

tarix üzrə fəlsəfə doktoru **X.S.QASIMOV**

**Aparıcı müəssisə:** Sumqayıt Dövlət Universitetinin Qədim dünya və orta əsrlər tarixi kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 24 fevral 2015-ci il tarixli 52 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasında "_26__" _09___ 2015-ci il saat "___"-da keçiriləcəkdir.

**Ünvan:** AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi-23, Bakı Dövlət Universitetinin Tarix fakultəsi

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" ___________ 2015-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə elmlər doktoru, professor** **S.Y.SÜLEYMANOVA**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir dünyada güclü inteqrasiya prosesi baş verir. Dünyada baş verən qloballaşma prosesi müxtəlif xalqların həyatının yalnız iqtisadi sahəsini əhatə etmir. Bu proseslərə fərqli münasibət mövcuddur. Hal-hazırda dünya miqyasında dərinləşən iqtisadi inteqrasiya prosesi mədəniyyətlərin qloballaşmasını da doğurur. Bu isə öz növbəsində müxtəlif dövlətlərin təbii, iqtisadi sərvətlər, ehtiyatlar üzərində nəzarəti itirməsinə və "standart mədəniyyət"in təsiri altında bir çox milli-mədəni dəyərlərin itirilməsinə gətirib çıxarır. "Standartlaşmaya" məruz qalan milli mədəniyyətlər əsrlər, minilliklər boyu təşəkkül tapmış "özünəməxsusluqlarından məhrum olmağa başlayır".[1] "Müasir dünyada gedən obyektiv və qanunauyğun proseslərə dərindən bələd olan prezident Heydər Əliyev real gerçəkliyə əsaslanan belə bir elmi nəticəyə gəlir ki, hazırkı dünyanın başlıca inkişaf meylləri mədəni inkişaf və qloballaşmadır. O, qeyd edir ki, müasir mərhələdə bəşəriyyətin qaçılmaz inkişaf yolu olan inteqrasiya və qloballaşmada hər bir ölkənin səciyyəvi milli cəhətləri də nəzərə alınmalıdır".[2]

Qədim tarixi, çoxəsrlik dövlətçilik ənənələri, bənzərsiz mədəniyyət sistemi ilə fərqlənən, hal-hazırda müstəqil dövləti olan hər bir xalq inteqrasiyadan kənarda qalmamaq şərtilə milli dəyərlərin qorunması naminə xüsusi strategiya işləyib hazırlamalı olur, inteqrasiya və qloballaşma proseslərini mümkün qədər nəzarətdə saxlamağa çalışır. Ötən əsrin 90-cı illərinin başlanğıcında tarixi ərazilərinin şimal qismində dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan xalqı hal-hazırda da beynəlxalq aləmdə fəallığı ilə seçilir. Bu gün Azərbaycan Respublikası dünya siyasətinin fəal subyektlərindəndir. Azərbaycan xalqının səsi beynəlxalq təşkilatlar səviyyəsində eşidilir. Xalqımızın mədəni dəyərləri dünya mədəni irsini zənginləşdirməkdədir. Azərbaycan xalqının böyük uğurları təsadüfi deyildir. Həmin uğurlar xalqın şərəfli mübarizəsi, dövlət siyasətinin gerçəkliklərə uyğun olan strategiyası hesabına qazanılmışdır. Bu strategiya müasirləşmə və qloballaşma ideyalarına, "Azərbaycanın bütün dünya üçün açıq olması prinsipinə" əsaslanır.[3] Lakin bu siyasətin digər vacib prinsipini xalqın və

---

[1]Иноземцев В.Л. Вестернизация как глобализация и «глобализация» как американизация // Вопросы философии, 2004, № 4, s.64

[2]Mahmudov Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 2002, s.118

[3]Heydər Əliyevin «Əsrin müqaviləsi»nin imzalanmasının beş illiyi münasibətilə keçirilən yubiley mərasimində çıxışı // Dirçəliş – XXI əsr, 1999, № 19, s.6

dövlətin mədəni özəyini qoruma amalı təşkil edir. Bu amal isə "doğru yolla, milli hissləri möhkəmləndirmək yolu ilə getmək" zərurətinə əsaslanır.[1]

5000 illik dövlətçilik tarixi olan Azərbaycan xalqının qədim mədəniyyəti vardır. Azərbaycan bütün tarixi dövrlərdə mədəniyyətin bütün sahələrində zəngin ənənələri olan bir ölkədir. Azərbaycan hələ antik dövrdən Qərbin və Şərqin qovuşduğu məkana çevrilmişdir. Böyük əhali miqrasiyaları, müxtəlif etnosların və dinlərin, fərqli iqtisadi sistemlərin qarşılıqlı təsiri, Azərbaycan mədəniyyətinin zənginliyi, xalqımızın yeni, qabaqcıl düşüncə tərzinə və əxlaqına açıq olması ölkəmizin özünəməxsusluğunu təmin etmiş amillərdəndir. Azərbaycan xalqı həm digər mədəniyyətlərə açıq olmuş, bu mədəniyyətlərin dəyərli cəhətlərini əxz etmiş, həm də tarixin müxtəlif mərhələlərində meydana çıxmış sinkretik mədəni sistemlərin təşəkkülündə yaxından iştirak etmişdir. Təkamülün bütün mərhələlərində Azərbaycan xalqı dünya mədəniyyətinin təşəkkülündə böyük rol oynamışdır. Bu rol dünya mədəniyyətinin inkişafında aydin nəzərə çarpır.

Sadalanmış tarixi proseslərin, problemlərin araşdırılması müstəsna dərəcədə elmi aktuallıq kəsb edir. Azərbaycan mədəniyyətinin inkişafı mərhələlərini müəyyən etmək, hər bir mərhələni səciyyələndirmək, xalqın mədəni həyatında durğunluq, tənəzzül və yüksəliş məqamlarının səbəblərini aşkar etmək, mədəni irsimizdə qədim və orta əsr mədəniyyətinin yerini və rolunu göstərmək mədəniyyət tariximizlə məşğul olan araşdırıcıların mühüm vəzifələrindəndir.

Azərbaycan xalqının zəngin mədəniyyətini tanımaq, dünyaya tanıtmaq, təbliğ etmək, regional mədəniyyət məcmusunda ("müsəlman mədəniyyəti", "Şərq mədəniyyəti" və s.) "əridilən", bəzən isə başqa xalqların adına çıxarılan Azərbaycan mədəniyyəti nümunələrinə sahib çıxmaq üçün də zəruridir. Azərbaycan xalqının mədəni həyatına aid olan faktlar dil, ədəbiyyat, memarlıq, dekorativ-tətbiqi sənət növləri və elm antik müəlliflərin, ərəbdilli səyyahların, XIII əsrdən etibarən isə Avropa müəlliflərinin diqqətini cəlb etmişdir. Ona görə də Azərbaycan mədəniyyətinin müxtəlif tarixi inkişaf dövrlərini araşdıran tədqiqatçılar üçün maddi mədəniyyət abidələri ilə yanaşı, yazılı mənbə məlumatları da yetərincədir. Hal-hazırda Azərbaycan xalqının antik və orta əsr mədəniyyətinin yalnız təcrübi deyil, nəzəri tərəflərini də araşdırmaq, nəzəri səciyyə daşıyan ümumiləşdirmələr aparmaq, müəyyən elmi nəticələrə gəlmək tədqiqatçılar üçün artıq mümkündür. Buna görə də Azərbaycan

---

[1] Mehdiyev R.Ə. XXI əsrdə milli dövlətçilik. Bakı: «XXI əsr – Yeni Nəşrlər Evi», 2003, s.199

mədəniyyətinin araşdırılması prosesində müxtəlif səciyyəli mənbələrin (maddi materialın və yazılı qaynaqların) müqayisəsi vacibdir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqat işində XV-XVII əsrlərdə Azərbaycan xalqının mədəni həyatının Qərbi Avropa səyyahlarının gündəliklərində öz əksini tapmış bir çox cəhətləri araşdırılır. Azərbaycanın siyasi tarixində əzəmətli imperiyaların (Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin) yaranması və inkişafı məhz bu dövrə təsadüf etmişdir. Həmin dövlətlər ölkənin və xalqın, eləcə də böyük strateji əhəmiyyəti olan bir bölgənin xalqlarının tarixində dərin iz qoymuşlar. Bu imperiyalar Azərbaycanda milli dövlətçiliyin və milli mədəniyyətin təşəkkülü prosesində əvəzsiz rol oynamışlar. Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri Azərbaycan xalqının ictimai-iqtisadi, siyasi, mədəni-mənəvi potensialına bağlı idilər və milli mədəniyyətin sürətli inkişafına şərait yaratmışdılar.

Ədəbiyyatda Azərbaycan (türk) dilinin üstünlük əldə etməsi, onun fars dilini sıxışdırıb çıxarması, tətbiqi sənətdə və memarlıqda milli məktəblərin təşəkkülü və inkişafı, elm və maarif sahələrində əsasən Azərbaycana xas olan dəyərlərə önəm verilməsi, təhsilin çox zaman Azərbaycan türkcəsində olması, Azərbaycanda yeni fəlsəfi məktəblərin və təlimlərin təşəkkülü və inkişafı, bu dəyərlərin Ümumşərq və Ümummüsəlman əhəmiyyəti kəsb etməsi XV-XVII əsrlərin əlamətdar hadisələrindən idi. Bu dövr həm də Azərbaycan xalqının mənəvi mədəniyyətinin tamlaşması ilə səciyyəvi olmuşdur. Xalqın adət-ənənələri, bayramları, nigah, toy və dəfn mərasimləri, inancları, mətbəxi və geyim mədəniyyəti, musiqisi ümumölkə səciyyəsi almışdı. Tədqiqat işinin xronoloji çərçivəsi müəyyən olunarkən məhz bu amillər nəzərə alınmışdır.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Azərbaycan xalqının XV-XVII əsrlərdəki mədəni inkişaf tarixini dövrün Qərbi Avropa müəlliflərinin gündəlikləri əsasında izləmək, bu mənbələrdə əks olunmuş məlumatların müqayisəli və tənqidi təhlilini təqdim etmək, Azərbaycan mədəniyyətinin inkişaf ənənələrinin müəyyən olunmasında bu mənbələrin elmi əhəmiyyətini aşkar etmək təqdim olunan dissertasiya işinin başlıca məqsədidir.

Bu məqsədə nail olunması üçün dissertasiyada əsas diqqət aşağıdakı vəzifələrin yerinə yetirilməsinə yönəldilmişdir:

- XV-XVII əsrlərdə Azərbaycanın mədəni həyatı haqqında bu və ya digər dərəcədə məlumatlar vermiş Qərbi Avropa səyyahlarının əsərlərinin təsnifatını təqdim etmək;
- Bu əsərlərin fərqli cəhətlərini göstərmək, onların verdiyi məlumatları digər mənbələrin məlumatları ilə müqayisə etmək, bu müqayisə

sayəsində elmi təhlilini təqdim etmək, bu mənbələrdə toplanmış məlumatların mötəbərlilik dərəcəsini müəyyənləşdirmək;

- Azərbaycan xalqının XV-XVII əsrlərdəki məişət mədəniyyətini, o cümlədən, şəhərlilərin və kənd əhalisinin gündəlik həyatını, ölkədə sənətkarlığın və ticarətin təşkili səviyyəsini, memarlıq abidələrini, mətbəx və geyim mədəniyyətini Qərbi Avropa səyyahlarının əsərlərindəki məlumatlar əsasında araşdırmaq;
- Azərbaycan xalqının mənəvi mədəniyyətinin mühüm komponentləri (adət-ənənələri, bayramları, nigah, toy və dəfn mərasimləri, inancları, dini görüşləri, məscidləri və pirləri, təsviri sənəti və musiqisi) haqqında Qərbi Avropa səyyahlarının məlumatlarını təhlil etmək;
- XV-XVII əsrlərin Qərbi Avropa mənbələrinin Azərbaycanda maarif sistemi və elmin inkişaf səviyyəsi haqqında tam təsəvvürün yaradılması üçün böyük əhəmiyyət kəsb etdiyini buradakı məlumatların təhlili əsasında göstərmək, məktəblər, tədris üsulları, təbiət elmlərinin, fəlsəfə və tarix elminin inkişaf səviyyəsini müəyyənləşdirərək təqdim etmək;
- XV-XVII əsrlərdə Azərbaycan ədəbiyyatında baş vermiş yüksəlişin səbəblərini araşdırmaq, bu yüksəlişin sonrakı ədəbi ənənələrin təşəkkülündə əhəmiyyətli dönüş olduğunu göstərmək;
- Vətən tarixçilərinin XV-XVII əsrlərdə Azərbaycan mədəniyyətinin təkamülünün bir çox məsələləri ilə əlaqədar olaraq Qərbi Avropa səyyahlarının gündəliklərində toplanmış məlumatların elmi əhəmiyyətinə münasibətini öyrənmək, Azərbaycan araşdırıcılarının tədqiqat əsərlərinin əhəmiyyətini qeyd etmək;
- XV-XVII əsrlərin Qərbi Avropa səyyahlarının gündəlikləri əsasında Azərbaycanın həmin dövrdəki mədəni həyatının öyrənilməsinin elmi əhəmiyyətini və müasirliklə səsləşən aktuallığını nəzərə çatdırmaq.

Dissertasiyanın ən mühüm vəzifələrindən biri də Azərbaycanın mədəniyyət tarixinin adı çəkilən məsələlərinə Qərbi Avropa səyyahlarının yalnız baxışını araşdırmaq deyil, həm də bu mədəniyyətin özəlliklərini, XV-XVII əsrlərdəki inkişaf xüsusiyyətlərini aşkara çıxarmaq olmuşdur. Əks təqdirdə dissertasiya işi Qərbi Avropa səyyahların əsərlərinin yalnız qısa icmalından ibarət olardı.

**Tədqiqatın nəzəri-metodoloji əsası.** Dissertasiyada qarşıya qoyulmuş elmi vəzifələrin yerinə yetirilməsi gedişində bir sıra elmi-nəzəri prinsiplərdən və metodlardan istifadə edilmişdir. Konseptuallıq, obyektivlik, tarixilik

prinsipləri, mənbə və tədqiqat materiallarına tənqidi yanaşma, onların müqayisəli təhlili metodları bu sıradadır.

Tədqiqat gedişində istifadə olunan əsas metod isə orta əsr yazılı mənbələrinə tənqidi yanaşmadır. Tədqiqatın mənbəşünaslıq bazasını əsasən səyyah gündəliklərinin təşkil etdiyini və bu əsərlərin hər bir səyyahın şəxsi müşahidələrinə və mühakimələrinə əsaslandığını nəzərə alsaq, tənqidi yanaşma metodunun vacibliyi bir daha aşkara çıxar. Nəzərdən keçirdiyimiz səyyahlar müxtəlif ictimai təbəqələrin, zümrələrin nümayəndələri olmuşlar. Onların dünyagörüşü, düşüncə tərzi və intellekt səviyyəsi də fərqli idi. Qərbi Avropa səyyahlarının Azərbaycan tarixi, Azərbaycan xalqı və Azərbaycan mədəniyyəti haqqında verdikləri məlumatların mötəbərliyi də məhz bu amillərdən asılıdır.

Tənqidi metodun, analiz (təhlil) və ümumiləşdirmə metodlarının tətbiqi XV-XVII əsrlərin Azərbaycan mədəniyyətinin obyektiv mənzərəsini yaratmağa imkan vermişdir. Dissertasiyada Azərbaycan tədqiqatçılarının problemə yanaşma prinsipləri, müddəaları və mülahizələri nəzərə alınmışdır.

**Problemin mənbə bazası**. Təqdim olunan dissertasiya işinin mənbə bazasını XV-XVII əsrlərin Avropa səyyahlarının gündəlikləri təşkil edir. Bu mənbələr dissertasiyada şərti olaraq üç qrupa ayrılmışdır:

1. Elm xadimlərinin, coğrafiyaçı-səyyahların və dənizçilərin gündəlikləri;
2. Diplomatların və missionerlərin xatirələri və rəsmi yazışmaları;
3. Tacirlərin və Qərbi Avropanın məşhur şirkət məmurlarının müxtəlif səciyyəli qeydləri.

Birinci qrupa H.Şiltbergerin (XV əsr), R.Consonun (XVI əsr), XVII əsrin səyyahları Pyetro della Vallenin, H.Poserin, A.Olearinin, P.Fleminqin, Y.Streysin, Pulenin, D.Batlerin, K.Bryuinin, E.Kempferin, K.Gemellinin, Ferranın, J.P.Turnforun, Buksbaumun və Perrinin gündəlik qeydləri daxildir.[1] XV əsrin diplomatları R.Q.Klavixonun, İ.Barbaronun, K.Zenonun, A.Kontarininin, XVI-XVII əsrin diplomatları və missionerləri M.Membrenin, V.Alessandrinin, U.Perrinin, S.Kakaşın, G.Tektanderin, F.Kruzenin, C.Lukkanın, A.Fiandranın, F.Avrilin, E.Motrenin əsərləri ikinci

---

[1]Подробное описание путешествия Гольштинского Посольства в Московию и Персию в 1633, 1636 и 1639 гг., составленное секретарем посольства Адамом Олеарием. Перевел с немецкого языка П.Барсов. Изд. Императорского Общества истории и древностей России при Московском Университете. Москва, изд. Университетской типографии, 1870; Стрейс Я.Я. Три путешествия / Перевод Э.Бородиной. Москва: Соцэкгиз, 1935, 383 с. və d.

qrupa aiddir.[1] E.Cenkinsonun, T.Olkokun, C.Rennin, R.Çininin, A.Edvardsın, A.Kitçinin, L.Çepmenin, T.Benisterin, C. Deketin, K.Berrounun, H.Leynin, E.Şerlinin, J.Tavernyenin və J.Şardenin əsərləri isə üçüncü qrupdadır.[2]

Dissertasiyada müsəlman müəlliflərinin əsərlərindən, o cümlədən Şah İsmayıl Xətainin şeirlərindən,[3] Oruc bəy Bayatın diplomatik missiyadakı xatirələrindən,[4] Həmdullah Mustovfi Qəzvininin "Zeyl-e tarixe qozide" adlı əsərindən,[5] Şərəf xan Bidlisinin "Şərəf-namə"sindən,[6] İbrahim Əfəndi Peçevinin "Tarix" əsərindən,[7] Aşıkpaşaoğlu Əhməd Aşikinin "Tevarih-i Al-i Osman"[8] və Evliya Çələbinin "Səyahətnaməsi"ndən[9] də geniş istifadə edilmişdir.

Qərbi Avropa səyyahlarının gündəlikləri əsasında Azərbaycan xalqının mədəni həyatının öyrənilməsi sahəsində Türkiyə tarix elmində müəyyən bir əsər yoxdur. Lakin dissertasiyada istifadə edilən əsərlər içərisində Avropa

---

[1] Josaphat Barbaro. Anadoluya ve İrana seyahat. Çeviri ve notlar: Tufan Gündüz. İstanbul: Yeditepe Yayınevi, 2005, 135 s.; Uzun Hasan ve Fatih Mucadelesi Dönemində Doğuda Venedik Elçileri. Caterino Zeno ve Ambrogio Contarinin Seyahatnameleri. İstanbul: Yeditepe Yayınevi, 2006, 144 s.; Venesiyalılar Şah Təhmasibin sarayında (Mikele Membre və Vinçenso Alessandri). Bakı: Təhsil, 2005, 112 s. və d.

[2] Tavernier Seyahatnamesi. Çeviren Teoman Tunçdoğan. İstanbul, Kitap Yayınevi, 2006 – 344.; Tavernier J.V. XVII. asır ortalarında Türkiye üzerinden İrana seyahat. Ceviren: E.Gültükin. İstanbul: Kervan Kitapçılık Basın Sanayi ve Ticaret A.Ş., 1980, 112; Английские путешественники в Московском государстве в XVI веке. Перевод с англ. Ю.В.Готье. Москва: Соцэкгиз, 1938, 308 с.; Путешествие Шардена по Закавказью в 1672-1673 гг. Перевод Е.В.Бахутовой и Д.П.Носовича // «Кавказский вестник» за 1900 и 1901 гг. Тифлис, 1902 və d.

[3] Şah İsmayıl Xətai. Keçmə namərd körpüsündən (Əsərləri). Bakı: Yazıçı, 1988, 344 s.

[4] Книга Орудж бека Баята – Дон Жуана Персидского. Перевод с английского, введение и комментарии О.Эфендиева, А.Фарзалиева. Баку: Язычы, 1988, 216 с.

[5] Həmdullah Mustovfi Qəzvini. Zeyl-e tarixe qozide ("Seçilmiş tarixə əlavə"). Giriş, tərcümə, şərhlər və göstəricilər M.D.Kazımovun və V.Z.Piriyevindir. Bakı, Elm, 1986, 148 s

[6] Бидлиси Шараф-хан ибн Шамсаддин. Шараф-наме. Перевод, предисловие, примечания Е.И.Васильевой. Т.1. Москва: Наука, 1967, s.; Т.2. Москва: Наука, 1976, 350 с.

[7] Ибрахим Эфенди Печеви. История (Извлечения по истории Азербайджана и сопредельных стран и областей периода 1520-1640 гг.). Перевод с турецкого и примечания З.М.Буниятова. Баку: Элм, 1988, 100 с.

[8] Aşıkpaşaoğlu Ahmed Aşiki. Tevarih-i Al-i Osman. Osmanlı tarihleri. C.1. İstanbul, 1949

[9] Evliya Çələbi. Səyahətnamə. Azərbaycan tarixinə aid seçmələr. Türk dilindən işləyəni və şərhlərin müəllifi S.Onullahi. Bakı: Azərnəşr, 1997, 92 s.

səyyahlarının əsərlərinin türk dilinə tərcümələrini xüsusi qeyd etmək lazımdır.[1]

Türkiyə tarix elmində bu problemin tədqiqi səviyyəsi ilə bağlı olaraq qeyd etdiklərimiz Rusiya tarix elmi üçün də səciyyəvidir. Belə ki, Rusiya tarixçiləri Qərbi Avropa səyyahlarının gündəlikləri əsasında orta əsrlərdə Azərbaycan xalqının mədəni inkişafı məsələlərinə demək olar ki, diqqət ayırmamışlar. Lakin bu inkişafı özündə əks etdirən Qərbi Avropa mənbələrinin rus dilinə tərcüməsi işində Rusiya araşdırıcılarının xidmətləri böyükdür.[2]

**Problemin işlənmə dərəcəsinə** gəlincə, qeyd etmək lazımdır ki, Azərbaycan mədəniyyəti tarixi ardıcıl, sistemli şəkildə əsasən 1940-cı illərdən araşdırılmağa başlanmışdır.[3] Amma bu əsərlər əsasən qısa icmal səciyyəsi daşıyırdı, mədəniyyətin müəyyən sahələrinin inkişafı prosesinə ümumi baxış idi.

Azərbaycan xalqının orta əsr mədəniyyətinin başlıca istiqamətlərinin fundamental tədqiqi isə yalnız 1960-cı illərdən genişlənir. Bu dövrdə xalqımızın mədəniyyət tarixi ilə bağlı olan problemləri sənətşünaslar, ədəbiyyatçılar, dilçilər, fəlsəfə tarixi ilə məşğul olanlar araşdırmışlar. 1960-90-cı illərdə Azərbaycanın memarlığı, tətbiqi-dekorativ sənət növləri, xüsusilə xalçaçılıq sənəti, incəsənətin digər sahələri, fəlsəfəsi tədqiqatçıların konkret araşdırma mövzusuna daxil edilmiş və qeyri-tarixçilərin bir sıra ciddi

---

[1]Josaphat Barbaro. Anadoluya ve İrana seyahat. Çeviri ve notlar: Tufan Gündüz. İstanbul: Yeditepe Yayınevi, 2005, 135 s.; Uzun Hasan ve Fatih Mucadelesi Dönemində Doğuda Venedik Elçileri. Caterino Zeno ve Ambrogio Contarinin Seyahatnameleri. İstanbul: Yeditepe Yayınevi, 2006, 144 s.; Seyyahların Gözüyle Sultanlar ve Savaşlar. İstanbul: Yeditepe Yayınevi, 2006, 246 s.; Tavernier Seyahatnamesi. Çeviren Teoman Tunçdoğan. İstanbul, Kitap Yayınevi, 2006, 344 s.; Tavernier J.V. XVII. asır ortalarında Türkiye üzerinden İrana seyahat. Ceviren: E.Gültükin. İstanbul: Kervan Kitapçılık Basın Sanayi ve Ticaret A.Ş., 1980, 112 s.

[2] Английские путешественники в Московском государстве в XVI веке. Перевод с англ. Ю.В.Готье. Москва: Соцэкгиз, 1938, 308 с.; Барбаро Иосафат и Контарини Амброзио. Барбаро и Контарини о России. Вступительная статья, подготовка текста, пер. и комм. Е.Ч.Скрижинской. Ленинград, 1971; Бушев П.П. История посольств и дипломатических отношений Русского и Иранского государств в 1586-1612 гг. Москва, 1976; Бушев П.П. История посольств и дипломатических отношений Русского и Иранского государств в 1613-1621 гг. Москва, 1987 və d.

[3]Azərbaycan ədəbiyyatı tarixi. I cild. Bakı: SSRİ EA Azərb. filialının nəşri, 1943, 288 s.; Архитектура Азербайджана III-XIX вв. Сост. С.А.Дадашев, М.А.Усейнов. Москва, 1948, 96 с. və s.

əsərləri nəşr olunmuşdur.[1] Bu araşdırmalarda Azərbaycanın milli mədəniyyətinin bir çox sahələrinin inkişaf mərhələləri müəyyən olunmuş, xalqımızın maddi və mənəvi mədəniyyəti vəhdətdə öyrənilmişdir.

XX əsrin 60-80-ci illərində Azərbaycanın orta əsr fəlsəfəsi daha geniş öyrənilir. Şərqin başlıca fəlsəfi təlimlərinin yaranmasında və yayılmasında Azərbaycan filosoflarının xidmətləri, bu təlimlərin xüsusiyyətləri tədqiqatçıların diqqətini xüsusilə cəlb edir. Bu tədqiqat əsərləri ümumiləşdirici səciyyə daşısa da, Azərbaycanın ən məşhur orta əsr filosofları, fəlsəfi təlimləri Şərq mənbələrinin materialları əsasında öyrənilmiş və oxucu kütləsinə təqdim olunmuşdur.[2]

Keçən əsrin ortalarından etibarən Azərbaycan tarixşünaslığında orta əsr şəhərləri probleminin geniş miqyaslı tədqiqi, şəhərlərin iqtisadi və mədəni həyatının öyrənilməsi, bu tədqiqatlarda arxeoloji materiallardan, yazılı mənbələrin məlumatlarından geniş istifadə olunması Azərbaycan xalqının orta əsr mədəniyyətinin bəzi məsələlərinin araşdırılmasına təkan vermişdir. Həmin tədqiqat əsərləri arasında S.B.Aşurbəylinin,[3] S.M.Onullahinin,[4] H.Ciddinin əsərləri[5] xüsusilə fərqlənir. Bu əsərlərdə orta əsr Azərbaycan şəhərlərinin tarixi araşdırılmış, mədəni inkişaf məsələlərinə də müəyyən dərəcədə toxunulmuşdur.

1960-80-ci illərdə Azərbaycanın orta əsr sənətkarlıq tarixinə həsr olunmuş əsərlər nəşr edilir. M.H.Heydərovun monoqrafiyaları[6] bu əsərlər arasında

---

[1]Bax: Саламзаде А.В. Архитектура Азербайджана XVI-XIX вв. Баку: Изд-во АН Азерб.ССР, 1964, 255 с.; Очерки по истории азербайджанской философии. Т. 1. Баку, 1966; Бретаницкий Л.С. Зодчество Азербайджана XIII-XV вв. и его место в архитектуре Переднего Востока. Москва: Наука, 1966, 558 с.; Бретаницкий Л.С., Веймарн Б.В. Искусство Азербайджана IV-XVIII вв. Москва: Искусство, 1976, 271 с.və s.

[2]Кулизаде З.А. Хуруфизм и его представители в Азербайджане. Баку, Элм, 1970 – 265 с.; Məmmədov Z.C. Azərbaycan fəlsəfəsi tarixi. Bakı: İrşad, 1994, 340 s.; Yenə onun. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri. Bakı: Azərnəşr, 1986, 66 s.

[3]Ашурбейли С.Б. Очерк истории средневекового Баку. Баку: Изд-во АН Азерб. ССР, 1964, 336 с.; Yenə onun. История города Баку. Период средневековья. Баку: Азернешр, 1992, 408 с.

[4]Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi tarixi). Bakı: Elm, 1982, 280 s.; Yenə onun. Təbrizin mədəniyyət tarixindən (X-XVII əsrlər) // "Qobustan", 1974, N 3, s.54-56

[5]Джидди Г.А. Средневековый город Шемаха (IX-XVII вв.). Историко-археологическое исследование. Баку: Элм, 1981, 175 с.

[6] Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв. Баку: Элм, 1967, 282 с.; Yenə onun. Ремесленное производство в городах Азербайджана в XIII - XVII вв. Баку: Элм, 1982; Yenə onun. Социально-экономические отношения и

xüsusi yer tutur. Bu əsərlərdə XIII-XVII əsrlərdə Azərbaycan şəhərlərinin istehsal tarixi, əhalinin sənətkarlıq fəaliyyəti, maddi mədəniyyəti araşdırılmışdır.

Lakin yuxarıda sadaladığımız tədqiqat əsərlərinin heç birində Azərbaycan xalqının orta əsr mədəniyyəti ayrıca problem kimi kompleks şəkildə araşdırılmamışdır. Həmin əsərlərdə Azərbaycan mədəniyyətinin bəzi sahələri yalnız konkret xronoloji çərçivədə nəzərdən keçirilmişdir.

Vətən tarixşünaslığında Azərbaycan xalqının orta əsr mədəniyyətinin kompleks surətdə araşdırılması cəhdi X.S.Qasımova məxsusdur. Bu tədqiqatçının VII-XVIII əsrlər Azərbaycan mədəniyyətinin başlıca sahələrinin təkamülü, bu təkamülün başlıca mərhələləri, istiqamətləri, bənzərsiz xüsusiyyətləri haqqında dəyərli əsərləri vardır.[1] Bu tədqiqat əsərlərində Vətən tarixşünaslığında ilk dəfə olaraq Azərbaycanın orta əsr mədəniyyətinin başlıca inkişaf mərhələləri müəyyənləşdirilmiş, hər bir mərhələnin xüsusiyyətləri göstərilmiş, mədəniyyət tarixinin aktual problemləri aşkara çıxarılmışdr. Bununla yanaşı, X.S.Qasımovun tədqiqat əsərlərində Azərbaycan xalqının maddi mədəniyyəti tədqiq edilməmişdir. X.S.Qasımovun tədqiqat əsərlərində Şərq mənbələrinə üstünlük verilir, Qərbi Avropa müəlliflərinin əsərlərindən isə səthi şəkildə istifadə olunur.

Orta əsr Qərbi Avropa müəlliflərinin əsərlərinin öyrənilməsinə isə Azərbaycan tarix elmində 1950-ci illərdən başlanmışdır. Ə.M.Şahmalıyev[2] və Y.M.Mahmudov Azərbaycan tarixinin məsələləri ilə bağlı olaraq XV-XVII əsrlərdə müxtəlif məqsədlərlə Azərbaycana gəlmiş Qərbi Avropa diplomatlarının, missionerlərinin, tacirlərinin və coğrafiyaçılarının əsərlərini ilk dəfə elmi dövriyyəyə daxil etmişlər. 1961-ci ildə Ə.M.Şahmalıyevin redaktəsi altında Azərbaycan xalqının mədəniyyəti ilə bağlı olan və geniş

---

ремесленные организации в городах Азербайджана в XIII-XVII вв. Баку: Элм, 1987, 212 с.; Yenə onun. Торговля и торговые связи Азербайджана в позднем средневековье. Баку: Элм, 1999, 168 с.

[1] Qasımov X.S. Azərbaycan mədəniyyəti (XVI-XVII əsrlər). Bakı: Nurlan, 2002, 170 s.; Yenə onun. Azərbaycan mədəniyyətinin inkişafı prosesində Səfəvilər dövlətinin rolu // Azərbaycanın dövlətçilik tarixində Səfəvilər dövlətinin yeri. Elmi-nəzəri konfransın materialları. Bakı: 2001, s.74-77; Yenə onun. Azərbaycan Renessansı (İntibahı) probleminə dair bəzi mülahizələr (I məqalə) // AMEA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. 2006, N 7, s.173-185; Yenə onun. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı: Aspoliqraf, 2008, 448 s.

[2] Шахмалиев Э.М. Дипломатические отношения Испании с Сефевидским государством во второй половине XVI века // УЗ АГУ, СИФ, 1955, N 7; Yenə onun. Из истории торговой политики европейских держав на Переднем Востоке в XVI веке – Автореферат … д.и.н. Баку, 1958

məlumatları özündə ehtiva edən həmin mənbələrin bir qisminin “Səyyahlar Azərbaycan haqqında” adlı topluda elmi dövriyyəyə buraxılması xüsusi qeyd olunmalıdır.[1]

Orta əsr Avropa mənbələrindəki materiallardan yalnız beynəlxalq siyasi tarixin deyil, həm də Azərbaycanın ümumi inkişafı ilə bağlı olaraq araşdırma aparmaq üçün istifadə etmiş ilk tədqiqatçı isə Y.M.Mahmudovdur. Onun hələ XX əsrin 60-70-ci illərində nəşr olunmuş məqalə və kitablarında bu mənbələrdə Azərbaycanla bağlı ən dəyərli məlumatlar tərcümə olunaraq oxucunun ixtiyarına verilmişdir. Həmin əsərlərdə bu mənbələr ayrı-ayrılıqda təhlil olunur, bu mənbələrdəki məlumatlar səciyyələndirilir. Azərbaycan tarixinin tədqiqi üçün onların böyük dəyər kəsb etdiyi sübut olunur.[2] Y.M.Mahmudovun XV-XVII əsrlər ərzində Azərbaycana səfərlər etmiş İosafat Barbaro, Antoni Cenkinson, Stefan Kakaş, Klavixo, Ambrocco Kontarini, Lazaro Kvirini, Adam Oleari, Paolo Onyibene, Georq Tektander, Katerino Zeno, onların məqsəd və vəzifələri haqqında məqalələri nəşr olunmuşdur.[3] Sonrakı illərdə Y.M.Mahmudov məktəbinin nümayəndələri XV-XVII əsrlərin Qərbi Avropa yazılı mənbələrinin araşdırılması işini davam etdirdilər və bu sahədə diqqəti cəlb edən elmi ədəbiyyat meydana çıxdı.[4]

---

[1] Путешественники об Азербайджане. Под ред. Э.М.Шахмалиева. Составитель З.И.Ямпольский. Т.1. Баку, 1961

[2] Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı: Təhsil, 2006, 416 s.; Yenə onun. Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Баку: Изд-во АГУ, 1991, 264 с.

[3] Mahmudov Y.M. Barbaro İosafat // ASE. II cild. Bakı: 1978, s.27; Yenə onun. İngilis səyyahı Antoni Cenkinson Azərbaycan haqqında // Elm və həyat, 1977, N 8; Yenə onun. Kakaş Stefan // ASE. V cild. Bakı: 1981, s.213; Yenə onun. Klavixo // ASE. V cild. Bakı: 1981, s.416; Yenə onun. Kontarini Ambrocco // ASE. V cild. Bakı: 1981, s.496; Yenə onun. Kastiliya elçisi Klavixo Azərbaycan haqqında // Elm və həyat, 1976, N 11; Yenə onun. Lazaro Kvirini // ASE. VI cild. Bakı: 1982, s.144; Yenə onun. Oleari Adam // ASE. VII cild. 1983, s.339; Yenə onun. Paolo Onyibene // ASE. VII cild. Bakı: 1983, s.452; Yenə onun. Tektander // ASE. IX cild, Bakı: 1986, s.189; Yenə onun. Zeno Katerino // ASE, IV cild, Bakı: 1980, s.312

[4] Cəfərov N. Azərbaycan milli mədəniyyətinin təşəkkül mərhələləri // “Qobustan”, 1988, N 4, s. 3-7; Əzimli D.M. Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə (XV əsrin II yarısı – XVII əsrin birinci yarısı). T.e.n. elmi dərəcəsi adı almaq üçün ... avtoreferatı. Bakı: 2010; Гасанзаде Д.Г. Англо-сефевидские отношения в конце XVI - начале XVII вв. (на основе английских источников). Баку: 2007; Камбайзаде Х.А. Государство Сефевидов в восточной политике западноевропейских держав в конце XVI – начале XVII вв. (по материалам «Хроники кармелитов») – Автореферат…к.и.н. Баку: 1991, 27 с.; Муганлинский Р.А. Азербайджанские государства XV-XVI вв. в английской историографии. Баку, 1998 və s.

Qərbi Avropa səyyahlarının gündəlikləri əsasında Azərbaycan tarixinin ayrı-ayrı məsələləri indiyədək tədqiq olunur. Bu tədqiqatlar əksər hallarda bir Avropa müəllifinin əsəri əsasında aparılmışdır. A.B.Baxşəliyevin və Ə.Quliyevin monoqrafiyaları,[1] E.Ə.Aslanovanın və Ə.H.Həsənovun ayrı-ayrı səyyahların gündəlikləri əsasında yazılmış dissertasiyaları[2] bu sıradadır.

Qərbi Avropa tarixçiləri problemlə bağlı olaraq xüsusi əsərlər nəşr etdirməmişlər. Lakin onların Yaxın və Orta Şərqin orta əsrlər tarixi, o cümlədən Azərbaycan Ağqoyunlu və Səfəvi dövlətlərinin tarixi üzrə bir çox əsərləri nəşr olunmuşdur. P.Sayksın, C.Vudsun, G.Serverin monoqrafiyalarını bu sırada qeyd etmək vacibdir.[3]

Beləliklə, Azərbaycan tarix elmində orta əsr mədəniyyət problemləri geniş şəkildə işlənsə də, xalqımızın XV-XVII əsrlər mədəniyyət tarixi Qərbi Avropa mənbələrinin materialları əsasında indiyədək ayrıca tədqiqat obyekti olmamışdır. Halbuki Azərbaycan xalqının XV-XVII əsrlərdəki məişəti, ölkədə sənətkarlığın və ticarətin təşkili səviyyəsi, memarlıq abidələri, mətbəx və geyim mədəniyyəti, mənəvi mədəniyyəti haqqında tam təsəvvür yaradılması üçün XV-XVII əsrlərin Qərbi Avropa mənbələrinin böyük əhəmiyyəti vardır. Dissertasiya işi də XV-XVII əsrlərin Azərbaycanın mədəniyyətinin bu istiqamətdə araşdırılması məqsədinə xidmət edir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyini şərtləndirən başlıca cəhətlər aşağıdakılardan ibarətdir:

- Vətən tarixində ilk dəfə olaraq XV-XVII əsrlərdə Azərbaycan xalqının mədəni həyatı haqqında bu və ya digər dərəcədə məlumatlar vermiş Qərbi Avropa səyyahlarının əsərlərinin təsnifatı təqdim olunur;
- Bu əsərlərin fərqli səciyyə daşıdığı göstərilir, onların digər mənbələrin məlumatları ilə müqayisəli təhlili təqdim edilir, bu qaynaqlarda toplanmış məlumatların mötəbərlilik dərəcəsi aşkara çıxarılır;

---

[1]Baxşəliyev A. Güney Azərbaycan şəhərlərinin mədəni həyatı səyyah gündəliklərində (XVI-XVII yüzilliklər). Bakı: Elm, 2003, 182 s.; Quliyev Ə. XVI əsrin ortalarında Azərbaycan Səfəvi dövlətinin ictimai-siyasi vəziyyəti (Mikele Membrenin "Səyahətnamə"si əsasında). Bakı: "Şərq-Qərb" Nəşriyyat evi, 2011 – 192 s.

[2]Aslanova E.Ə. Azərbaycan XVII əsr Avropa səyyahlarının təsvirində (J.Şarden, J.V.Tavernye, Y.Streys). – T.ü.f.d. elmi dərəcəsi almaq üçün... avtoreferatı. Bakı: 2008, 24 s.; Həsənov Ə.H. Azərbaycanın sosial-iqtisadi və mədəni həyatı Jan Batist Tavernyenin "Səyahətnamə"sində. T.ü.f.d. elmi dərəcəsi almaq üçün ... avtoreferatı. Bakı: 2008, 24 s.

[3] Sarwar G. History of Shah Ismail Sawafi.London, 1939; Sykes P.A History of Persia.Vol. 1. London, 1951; Woods J. The Aqqoyunlu.Clan, Confederation, Empire. Chicago, 1976

- Azərbaycan tarix elmində ilk dəfə olaraq xalqımızın mədəniyyət tarixi ilə bağlı olaraq XV-XVII əsrlərin Qərbi Avropa səyyahlarının əsərləri geniş təhlil edilir;
- Azərbaycan xalqının XV-XVII əsrlərdəki məişət mədəniyyəti (şəhərlilərin və kənd əhalisinin gündəlik həyatı, ölkədə sənətkarlığın və ticarətin təşkili səviyyəsi, memarlıq abidələri, mətbəx və geyim mədəniyyəti) Qərbi Avropa mənbələrinin məlumatları əsasında araşdırılır;
- Azərbaycan xalqının mənəvi mədəniyyəti (adət-ənənələri, bayramları, nigah, toy və dəfn mərasimləri, inancları, dini görüşləri, məscidləri və pirləri, təsviri sənəti və musiqisi) haqqında Qərbi Avropa səyyahlarının məlumatları təhlil olunur;
- XV-XVII əsrlərin Qərbi Avropa mənbələrinin də Azərbaycanın maarif sistemi və elmin inkişaf səviyyəsi haqqında tam təsəvvürün yaradılması üçün böyük əhəmiyyət kəsb etdiyi buradakı məlumatların təhlili əsasında nəzərə çatdırılır, bu dövrdə Azərbaycanda məktəblər, tədris üsulları, təbiət elmlərinin, fəlsəfənin və tarix elminin inkişaf səviyyəsi haqqında bilgilər həmin məlumatlar əsasında təqdim edilir;
- XV-XVII əsrlərdə Azərbaycan ədəbiyyatının yüksəlişinin Qərbi Avropa mənbələrində də əks olunduğu göstərilir, bu yüksəlişin səbəbləri araşdırılır, Azərbaycan (türk) ədəbi dilinin və poeziyasının yüksəlişinin sonrakı ədəbi ənənələrin təşəkkülündə əhəmiyyətli dönüş olduğu göstərilir;
- Azərbaycan xalqının həmin dövrdəki mədəni həyatının öyrənilməsinin elmi əhəmiyyəti və aktuallığı XV-XVII əsrlərin Avropa səyyahlarının gündəlikləri əsasında müəyyən olunur.

Beləliklə, təqdim olunan dissertasiya Vətən tarixində XV-XVII əsrlərin Azərbaycan mədəniyyətinin inkişaf xüsusiyyətlərini həmin dövrün Qərbi Avropa mənbələri əsasında müəyyən etmək yolunda ilk cəhddir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiyada olan geniş mənbəşünaslıq materialından, yeni elmi mülahizələrdən, ümumiləşdirmələrdən və nəticələrdən Azərbaycan tarixi və Azərbaycan xalqının mədəniyyət tarixi üzrə fundamental əsərlərin yazılması prosesində istifadə oluna bilər. Təqdim olunan tədqiqat işi ümumdünya tarixinin bəzi problemləri (Avropa dövlətlərinin diplomatiyası tarixi, bu dövlətlərin xarici siyasət tarixi, ayrı-ayrı şəxsiyyətlərin diplomatik fəaliyyəti, orta əsrlərin Avropa tarixşünaslığı) üzrə araşdırmalar aparan alimlər üçün də əhəmiyyətlidir.

Dissertasiyadakı bir çox materiallar Şərq tarixi üzrə dərsliklərə və dərs vəsaitlərinə də daxil oluna bilər. Bu materiallar “Azərbaycan tarixi” və “Azərbaycan tarixinin mənbəşünaslığı” ixtisasları üzrə mühazirələrin və ixtisas kurslarının, magistratura pilləsi üçün proqramların və metodik vəsaitlərin tərtibi gedişində də faydalı ola bilər.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya BDU-nun “Qədim dünya və orta əsrlər tarixi” kafedrasının iclaslarında müzakirə edilmiş və müdafiəyə buraxılmışdır. Tədqiqat işinin əsas müddəaları və nəticələri müəllifin dərc olunmuş məqalələrində, onun müxtəlif elmi konfranslardakı məruzələrində özünün tam əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, 12 paraqrafı əhatə edən dörd fəsil, nəticə və istifadə olunmuş mənbə ədəbiyyatın siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və xronoloji çərçivəsi əsaslandırılır, problemin öyrənilmə vəziyyəti göstərilir, mənbə və nəzəri-metodoloji bazasının icmalı verilir. Girişdə, həmçinin, tədqiqatın məqsədi və vəzifələri müəyyən edilir, elmi yeniliyi və praktik əhəmiyyəti göstərilir.

Dissertasiyanın **I Fəsli "Problemin tarixşünaslığı və mənbəşünaslığı"** adlanır. Fəsil iki paraqrafdan ibarətdir və müvafiq olaraq "Qərbi Avropa səyyahlarının əsərlərinin Azərbaycan tarixində tədqiqi səviyyəsi" və "Qərbi Avropa səyyahlarının gündəlikləri Azərbaycan xalqının mədəni inkişaf tarixini öyrənmək üçün mənbə kimi" adlanır.

Dissertasiyanın I fəslində qeyd edilir ki, Azərbaycan mədəniyyəti, xüsusilə ədəbiyyatı tarixi kompleks şəkildə keçən əsrin 40-cı illərindən araşdırılmağa başlanmışdır. Həmin tədqiqat əsərləri əsasən qısa icmal səciyyəsi daşıyırdı və mədəniyyətin müəyyən sahələrini əhatə edirdi.[1] Bu əsərlərdə Azərbaycan xalqının orta əsrlər tarixinə böyük yer ayrılmamış, bu problemlə əlaqədar Qərbi Avropa səyyahlarının məlumatlarına isə demək olar ki, diqqət yetirilməmişdir.

Azərbaycanın orta əsr mədəniyyətinin başlıca istiqamətlərinin fundamental tədqiqi XX əsrin 60-cı illərindən etibarən genişləndi. Bu dövrdə xalqımızın mədəniyyət tarixi ilə bağlı problemləri sənətşünaslar, ədəbiyyatçılar, dilçilər və s. araşdırmış, Vətən tarixçiləri isə qeyri-fəal mövqe tutmuşlar.

Azərbaycan xalqının orta əsr mədəniyyətinin kompleks surətdə araşdırılması cəhdi X.S.Qasımova məxsusdur. Onun VII-XVIII əsrlər Azərbaycan mədəniyyətinin başlıca sahələrinin təkamülü, bu təkamülün başlıca mərhələləri, istiqamətləri, xüsusiyyətləri haqqında dəyərli əsərləri vardır.[2] Bu əsərlərdə ilk dəfə olaraq Azərbaycanın orta əsr mədəniyyətinin başlıca inkişaf mərhələləri müəyyənləşdirilmiş, mədəniyyət tariximizin aktual

---

[1] Azərbaycan ədəbiyyatı tarixi. I cild. Bakı: SSRİ EA Azərb. filialının nəşri, 1943, 288 s.; Архитектура Азербайджана III-XIX вв. Сост. С.А.Дадашев, М.А.Усейнов. Москва, 1948, 96 с. və s.

[2] Qasımov X.S. Azərbaycan mədəniyyəti (XVI-XVII əsrlər). Bakı: Nurlan, 2002, 170 s.; Yenə onun. Azərbaycan mədəniyyətinin inkişafı prosesində Səfəvilər dövlətinin rolu // Azərbaycanın dövlətçilik tarixində Səfəvilər dövlətinin yeri. Elmi-nəzəri konfransın materialları. Bakı: 2001, s.74-77; Yenə onun. Azərbaycan Renessansı (İntibahı) probleminə dair bəzi mülahizələr (I məqalə) // AMEA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. 2006, N 7, s.173-185; Yenə onun. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı: Aspoliqraf, 2008, 448 s.

problemləri aşkara çıxarılmış, lakin Azərbaycanın maddi mədəniyyəti tədqiq edilməmişdir.

XX əsrin 50-ci illərindən başlayaraq orta əsr Qərbi Avropa müəlliflərinin əsərlərinin öyrənilməsinə başlanır. 1961-ci ildə Ə.M.Şahmalıyevin redaktəsi altında "Səyyahlar Azərbaycan haqqında" toplusu elmi dövriyyəyə buraxılır.

Orta əsr Avropa mənbələrinin kompleks araşdırılması isə Yaqub Mahmudovun adı ilə bağlıdır. Onun hələ 1960-70-ci illərində nəşr olunmuş məqalə və kitablarında Avropa mənbələri ayrı-ayrılıqda təhlil olunur, bu mənbələrdəki məlumatlar səciyyələndirilir. Azərbaycan tarixinin tədqiqi üçün onların böyük dəyər kəsb etdiyi sübut olunur.[1] Qərbi Avropa səyyahlarının gündəlikləri əsasında Azərbaycan tarixinin ayrı-ayrı məsələləri hal-hazırda da tədqiq olunur. Bu tədqiqatlar əksər hallarda bir Avropa müəllifinin əsəri əsasında aparılmışdır. A.B.Baxşəliyevin və Ə.Quliyevin monoqrafiyaları, E.Ə.Aslanovanın və Ə.H.Həsənovun ayrı-ayrı səyyahların gündəlikləri əsasında yazılmış dissertasiyaları bu sıradadır.[2]

XX əsrin 90-cı illərinin əvvəllərindən etibarən Qərbi Avropa mənbələrində Azərbaycan tarixinə aid olan materialların öyrənilməsi sahəsində xeyli iş görülmüşdür. Bu mənbələrin bir qismi Azərbaycan dilinə tərcümə edilmiş, həmin tərcümələrə şərhlər yazılmış və nəşr edilmişdir.[3]

Bu sahədə Türkiyə tarixçilərinin də xidmətlərini qeyd etmək lazımdır. Onların sırasında İ.Barbaronun gündəliklərini tərcümə və şərh etmiş, K.Zenonun və A.Kontarininin səyahətnamələrini tərcümə edərək çap etdirmiş T.Gündüzü xüsusilə qeyd etmək lazımdır. Həmin tədqiqatçı digər əsərində Anciolellonun, Vinçenso de Alessandrinin və anonim Venesiya müəllifinin səyahətnamələrini türk dilinə şərhlərlə tərcümə etmiş, oxucuların nəzərinə

---

[1]Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı: Təhsil, 2006, 416 s.; Yenə onun. Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Баку: Изд-во АГУ, 1991, 264 с. və d.

[2] Baxşəliyev A. Güney Azərbaycan şəhərlərinin mədəni həyatı səyyah gündəliklərində (XVI-XVII yüzilliklər). Bakı: Elm, 2003, 182 s.; Quliyev Ə. XVI əsrin ortalarında Azərbaycan Səfəvi dövlətinin ictimai-siyasi vəziyyəti (Mikele Membrenin "Səyahətnamə" si əsasında). Bakı: "Şərq-Qərb" Nəşriyyat evi, 2011, 192 s.; Aslanova E.Ə. Azərbaycan XVII əsr Avropa səyyahlarının təsvirində (J.Şarden, J.V.Tavernye, Y.Streys). – T.ü.f.d. elmi dərəcəsi almaq üçün... avtoreferatı. Bakı: 2008, 24 s.; Həsənov Ə.H. Azərbaycanın sosial-iqtisadi və mədəni həyatı Jan Batist Tavernyenin "Səyahətnamə"sində. T.ü.f.d. elmi dərəcəsi almaq üçün ... avtoreferatı. Bakı: 2008, 24 s.

[3] Şarden Jan. Səyahətnamə / Fransız dilindən tərcümə V.Aslanovundur. Bskı, 1994; Venesiyalılar Şah Təhmasibin sarayında (Mikele Membre və Vinçenso Alessandri). Bakı: Təhsil, 2005, 112 s.

çatdırmışdır. Türkiyə tarixçisi E.Gültükin və T.Tunçdoğan fransız səyyahı J.Tavernyenin gündəliklərini tərcümə və şərhlərlə nəşr etdirmişdir.[1]

Qərbi Avropa mənbələrinin rus dilinə tərcüməsi işində Rusiya araşdırıcılarının xidmətləri böyükdür. Lakin həmin mənbələrdə Azərbaycan xalqının tarixi, o cümlədən mədəni həyatı ilə bağlı olan məlumatlar rus tarixçilərinin diqqətindən kənarda qalmışdır. Problemin nəzəri tərəflərini araşdırmaq üçün bəzi Rusiya müəlliflərinin əsərlərini qeyd etmək olar. Mədəniyyətin cəmiyyət həyatında hərəkətverici rolu, mədəniyyətlərarası ünsiyyətin ayrı-ayrı məqamları və s. problemlərin həll olunması üçün A.L.Andreyevin, S.N.Artanovskinin, E.A.Ballerin, S.L.Bezklubenkonun, N.V.Qonçarenkonun, A.Y.Qureviçin tədqiqat əsərlərinin böyük əhəmiyyəti vardır.[2]

Qərbi Avropa tarixçiləri problemlə bağlı xüsusi əsərlər nəşr etdirməmişlər. Lakin onların Azərbaycan Ağqoyunlu və Səfəvi dövlətlərinin tarixi üzrə bir çox əsərləri nəşr olunmuşdur. P.Sayksın "İran tarixi", C.Vudsun "Ağqoyunlu. Sülalə, təşkilat, imperiya", G.Serverin "Şah İsmayıl Səfəvinin tarixi" adlı monoqrafiyaları bu sıradadır. Həmin əsərlərdə Ağqoyunlu və Səfəvi dövlətlərinin hərbi-siyasi tarixi məsələlərinə böyük yer ayrılmış, Azərbaycan xalqının mədəni həyatı isə diqqətdən kənarda qalmışdır. Bununla yanaşı, bu əsərlərdəki material bizim tədqiqatımız üçün nəzəri əhəmiyyət kəsb edir.[3]

I fəslin ikinci paraqrafında Azərbaycan tarixi, o cümlədən mədəniyyət tarixi ilə bağlı geniş məlumatları olan səyyahlar haqqında icmal təqdim olunur. Göstərilir ki, XV-XVII əsrlərdə Qərbi Avropanın elm xadimlərinin və

---

[1] Josaphat Barbaro. Anadoluya ve İrana seyahat. Çeviri ve notlar: Tufan Gündüz. İstanbul: Yeditepe Yayınevi, 2005, 135 s.; Uzun Hasan ve Fatih Mucadelesi Dönemində Doğuda Venedik Elçileri. Caterino Zeno ve Ambrogio Contarinin Seyahatnameleri. İstanbul: Yeditepe Yayınevi, 2006, 144 s.

Uzunçarşılı İ.H. Osmanlı tarihi. C.2. Ankara: TTK Basımevi, 1988, 756 s.; Seyyahların Gözüyle Sultanlar ve Savaşlar. İstanbul: Yeditepe Yayınevi, 2006, 246 s.; Tavernier Seyahatnamesi. Çeviren Teoman Tunçdoğan. İstanbul, Kitap Yayınevi, 2006, 344 s.; Tavernier J.V. XVII. asır ortalarında Türkiye üzerinden İrana seyahat. Ceviren: E.Gültükin. İstanbul: Kervan Kitapçılık Basın Sanayi ve Ticaret A.Ş., 1980, 112 s.

[2] Андреев А.Л. Место искусства в познании мира. Москва: Политиздат, 1980, 255 с.; Артановский С.Н. Историческое единство человечества и взаимовлияние культур. Ленинград: Просвещение, 1967, 268 с.; Баллер Э.А. Преемственность в развитии культуры. Москва: Наука, 1969, 294 с.; Безклубенко С.Д. Природа искусства. Москва: Политиздат, 1982, 166 с.; Гончаренко Н.В. Духовная культура: источники и движущие силы прогресса. Киев: Наукова Думка, 1980, 379 с.; Гуревич А.Я. Категории средневековой народной культуры. Москва: Искусство, 1972, 318 с.

[3] Sarwar G. History of Shah Ismail Sawafi.London, 1939; Sykes P.A History of Persia.Vol. 1. London, 1951; Woods J. The Aqqoyunlu.Clan, Confederation, Empire. Chicago, 1976

dənizçilərinin səyahətnamələrinin bir mənbə kimi araşdırılması həmin dövrdə bu qitədə elmin inkişaf səviyyəsinin təhlil olunması üçün vacibdir.

XV-XVII əsrlərdə Azərbaycan xalqının mədəni həyatı, ümumiyyətlə inkişaf səviyyəsi haqqında məlumat vermiş Avropa alimləri, coğrafiyaçıları, dənizçiləri içərisində XVII əsrin səyyahları üstünlük təşkil edirlər. Bunun bir neçə səbəbi var idi: 1) XV əsrdə - XVI əsrin əvvəllərində avropalı elm xadiminin və ya peşəkar coğrafiyaçısının karvan yolu ilə Osmanlı imperiyası, Misir məmlük dövləti, Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu imperiyaları ərazisindən keçib sərbəst şəkildə səyahət etməsi o qədər də asan deyildi. Müsəlman dünyasının bu dövlətləri bir-biri ilə rəqabət aparırdılar və sərhədləri rahatlıqla aşmaq əcnəbilər üçün mümkün deyildi; 2) avropalıların dünya haqqında təsəvvürləri, coğrafi bilikləri XV əsrdə hələ kifayət səviyyədə deyildi. XV əsrin Qərbi Avropa alimi, hətta coğrafiyaçısı və dənizçisi üçün Hindistana qərb yolu ilə səyahət etmək Roma imperiyası dövründən bu yana adını eşidib özünü görmədiyi Uzaq Şərqə səfərə çıxmaqdan daha cəlbedici gəlirdi.

XVI əsrin ortalarından isə vəziyyət əsaslı şəkildə dəyişdi: Misir məmlük dövlətinin, Qaraman bəyliyinin, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yerini Osmanlı və Səfəvi dövlətləri tuturdu. Azərbaycan ərazisində yaranmış, tezliklə imperiyaya çevrilmiş Səfəvi dövləti də daha sabit siyasi inkişafa, iqtisadi qüdrətə malik idi və Avropa dövlətləri ilə həm siyasi-diplomatik, həm də ticarət əlaqələri qurmaqda maraqlı idi.

XV-XVII əsrlərdə Azərbaycan xalqının mədəni həyatı haqqında məlumatlar vermiş Qərb alimləri, xüsusilə coğrafiyaçılar və dənizçilər əsasən aşağıdakılardır: İ.Şiltberger, R.Conson, Pyetro della Valle, H.Poser, A.Oleari, P.Fleminq, Y.Streys, Pule, D.Batler, K.Bryuin, E.Kempfer, K.Gemelli, Ferran, J.Turnfor, H.Buksbaum, C.Perri. I fəslin ikinci paraqrafında onların hər biri haqqında icmal məlumatlar verilir.

XV-XVII əsrlərdə Azərbaycanda xeyli Qərbi Avropa diplomatı və missioneri olmuşdur; dissertasiyada əsərlərinə istinad edilmiş diplomatlar aşağıdakılar: Ryui Qonsales de Klavixo, İosafat Barbaro, Katerino Zeno, Ambrocco Kontarini, Ciovanni Maria Anciolello, Mikele Membre, Vinçenso de Alessandri, Uilyam Perri, Stefan Kakaş və Georq Tektander, Filipp Kruze, Covanni Lukka, Ebru de la Motre. I fəslin ikinci paraqrafında onların hər biri haqqında icmal məlumatlar verilir.

XV-XVII əsrlərdə Azərbaycana səyahət etmiş avropalılar içərisində tacirlər digər səyyahlara nisbətən sayca çoxluq təşkil edir. Əlverişli geosiyasi mövqeyə, təbii ehtiyatlara, zəngin sənətkarlığa, geniş istehlak bazarına malik

olan Azərbaycan da Qərbi Avropa ticarət kapitalının maraq dairəsinə düşmüşdü. Volqa-Xəzər su ticarəti yolunun başlıca məntəqəsi olması, qədim "İpək Yolu"nun üzərində yerləşməsi, İran körfəzi sahillərinə və limanlarına malik olması Azərbaycan dövlətlərinin Avropa ilə əlaqələrinin genişlənməsində mühüm amil olmuşdur. Azərbaycanın Qərb dövlətləri ilə əlaqələrində siyasi şərtlətlə yanaşı, iqtisadi amillər də müəyyən rol oynamışdır. Müxtəlif şirkətlərin üzvləri ilə yanaşı müstəqil şəkildə ticarətlə məşğul olan tacirlər də Azərbaycanda olmuşlar. Lakin onlar da nəticədə şirkətlərin qeyri-rəsmi nümayəndələrinə çevrilmişdilər: Venesiyalı anonim tacir, E.Cenkinson, T.Olkok, C.Renn, R.Çini, A.Edvards, R.Conson, A.Kitçin, L.Çepmen, T.Benister, C.Deket, K.Berrou, Entoni Şerli, Jan Tavernye, Jan Şarden. I fəslin ikinci paraqrafında onların hər biri haqqında icmal məlumatlar verilir.

Dissertasiyanın **II Fəsli "XV-XVII əsrlər Azərbaycan xalqının maddi mədəniyyəti Qərbi Avropa səyyahlarının gündəliklərində"** adlanır və 4 paraqrafdan ibarətdir. Fəsildə Azərbaycanın yaşayış məskənləri, şəhərləri, memarlıq abidələri, həmçinin istehsal mədəniyyəti, ticarət həyatı Avropa səyyahlarının gündəlikləri əsasında araşdırılır. Fəsildə həmçinin Azərbaycan mətbəxi və geyim mədəniyyəti də tədqiq edilir.

Avropa səyyahlarının məlumatlarından XV-XVII əsrlərdə Azərbaycanın məhz hansı şəhərlərinin inzibati, siyasi, iqtisadi-ticarət baxımından aparıcı olduğunu, bölgələrin təsərrüfat ixtisaslaşmasını, həmin yaşayış məskənlərinin əhalisinin daha yaxşı şəraitdə yaşama istəyinin onun həm də yüksək mədəniyyətindən xəbər verdiyini, şəhərlərdə gigiyena qaydalalarına nə dərəcədə əməl olunduğunu, onların ərzaqla və nəqliyyat vasitələrilə, qonaq evləri, karvansaralar və ticarət köşkləri ilə təminatını və s. öyrənmək olur.

XV-XVII əsrlərin Qərbi Avropa səyyahlarının Azərbaycanın başlıca şəhərlərindəki memarlıq abidələri haqqında məlumatlarını təhlil edib aşağıdakı nəticələrə gəlmək olar. Azərbaycanın həm iri siyasi və inzibati, həm də ticarət və sənətkarlıq mərkəzlərində memarlıq öz dövrünə görə yüksək inkişaf səviyyəsində idi, möhtəşəmliyinə və üslub gözəlliyinə görə ən tələbkar avropalını da heyran etmişdi. Yeni tikilmiş abidələrlə yanaşı, qədimdən qalmış, müharibələr, təbii fəlakət və digər səbəblər üzündən dağılmış tikililər də avropalıların diqqətini cəlb edirdi və onların bir qismini müasir dövrdə aşkar etmək mümkün olmadığına görə, bu səyyahların məlumatları çox dəyərlidir.

Azərbaycanda ən başlıca sənətkarlıq sahəsi toxuculuq idi. Ən böyük şəhərlərdən tutmuş xırda yaşayış məskənlərinədək – bütün bazarlarda toxuculuq məhsulları ilə ticarət edənlərə təsadüf edilirdi. Bəzi Azərbaycan şəhərləri isə artıq əsrlər boyu müəyyən bir toxuculuq məhsulunun istehsalı üzrə

ixtisaslaşmışdı. Ümumiyyətlə, bu dövrdə Azərbaycanda məlum olan bütün sənət sahələri geniş yayılmışdı. Avropa ölkələrində Bakı-Şirvan sənət məktəbinin xalçalarına da böyük tələbat var idi.

XV-XVII əsrlərin Qərbi Avropa səyyahlarının diqqətini cəlb etmiş ən məşhur və iri miqyaslı ticarət əməliyyatlarının aparıldığı bazarlar Təbriz, Ərdəbil, Şamaxı və Sultaniyyə şəhərlərində idi. Lakin digər şəhərlərdə, hətta iri kəndlərdə də bazarlara çox təsadüf edilirdi.

Qərbi Avropa səyyahlarının diqqətini cəlb etmiş başlıca cəhət Azərbaycan yeməklərinin və içkilərinin bol çeşidi, rəngarəngliyi olmuşdur. Bu isə ilk növbədə Azərbaycanın bol nemətinin, iqlim qurşaqlarının müxtəlifliyinin, qədim əkinçilik və maldarlıq ənənələrinin olması ilə izah olunur. Səyyahlar Azərbaycan əhalisinin məişətində ticarət və sənətkarlıqla yanaşı, kənd təsərrüfatının da önəmli olduğunu dəfələrlə təsbit etmişlər.

Azərbaycan əhalisi tərəfindən avropalıların şərəfinə verilmiş möhtəşəm qonaqlıqlarda saysız-hesabsız xörəklərin, məzə və içkilərin hər birinin adının səyyahlar tərəfindən qeyd olunması mümkün deyil. Lakin onları valeh etmiş yeməklər gündəliklərdə və səyahətnamələrdə tez-tez xatırlanır. Bu, plov, quru balıq, halva, doşab, müxtəlif meyvə qurularıdır.

XV-XVII əsrlərin Qərbi Avropa müəllifləri müşahidəçi ruhlu olduqlarına görə, Azərbaycana səyahətləri gedişində yerli əhalinin geyim tərzi, gigiyenası, bəzək və zinət əşyaları, hətta saç düzümləri, kişilərin təraş qaydaları haqqında da qeydlər etmişlər. Təbiidir ki, bu məlumatlar orta əsrlərdə Azərbaycan əhalisinin geyim tiplərini ayırmaq, onların təsnifatını aparmaq, hər bölgənin xüsusiyyətini müəyyənləşdirmək üçün yetərli deyil. Lakin həmin qaynaqlar orta əsrlərdə Azərbaycan xalqının geyim mədəniyyətinin ümumi səciyyəsini vermək üçün kifayətdir. Qərbi Avropa müəlliflərinin qeydlərindən bəlli olur ki, bu dövrdə Azərbaycanda sənətkarlığın yüksək səviyyəsi satış məhsullarının çeşidinin artırılmasına imkan verirdi və geyim materialları içərisində yun və ipək parçalar əsas yer tuturdu.

Azərbaycan mədəniyyətinin təşəkkülünün və inkişaf yolunun öyrənilməsi üçün qiymətli mənbə olan xalq geyimləri həm də XV-XVII əsrlərdə ölkənin ictimai vəziyyətini, xalqın maddi mədəniyyətinin səviyyəsini müəyyənləşdirmək üçün zəruridir. Bu dövrün Qərbi Avropa səyyahlarının məlumatları təsdiq edir ki, ayrı-ayrı məhəlli fərqlərə baxmayaraq, Azərbaycanın kişi və qadın geyim tipləri Ümumxalq geyim fondunu təşkil etmişdir. Azərbaycan xalqının orta əsr geyimləri onun qədim tarixə və milli-mədəni vəhdətə malik olduğunu sübut edir.

Dissertasiyanın **III Fəsli “Azərbaycanın mənəvi mədəniyyəti Qərbi Avropa səyyahlarının gündəliklərində”** adlanır və 3 paraqrafdan ibarətdir. Fəsildə Azərbaycan xalqının adət-ənənələri, bayram və müxtəlif mərasimləri, inancları, incəsənətin müxtəlif sahələri Avropa səyyahlarının gündəlikləri əsasında tədqiq edilir. XV-XVII əsrlərin Qərbi Avropa səyyahlarının Azərbaycan xalqının adət-ənənələrinə dair məlumatlarında daha çox qonaqpərvərlik, qonaq qarşılama ilə bağlı olan qeydlər diqqəti cəlb edir.

XV-XVII əsrlərin Qərbi Avropa səyyahlarının gündəliklərində daha geniş şəkildə öz əksini tapmış Azərbaycan xalqı bayramları işərisində Novruzu xüsusi qeyd etmək lazımdır. Novruzun qeyd olunması ilə bağlı ən maraqlı məlumatlar Adam Olearinin, Jan Şardenin, Yan Streysin səyahətnamələrində, yol qeydlərindədir. Bu mənbələrdə Novruz bayramının keçirilməsi ilə bağlı məlumatlar verilir, Azərbaycan xalqının bayram ənənələrinin zənginliyindən, əhalinin xeyriyyəçiliyə meyilli olmasından, bu ənənələrin təqribən dəyişmədən bu günədək qorunmasından xəbər verilir.

Azərbaycan xalqının həyatında dini bayramlar, o cümlədən Qurban bayramı xüsusi önəm kəsb edirdi. Adam Olearinin və Yan Streysin əsərlərində bu bayramın keçirilmə qaydalarına dair maraqlı məlumatlar var. Azərbaycan xalqının gündəlik həyatında toy, nişan və dəfn adətləri də müəyyən əhəmiyyət kəsb edirdi.

XV-XVII əsrlərin Qərbi Avropa səyyahlarının əsərlərində Azərbaycanda orta əsrlərdə çox geniş yayılmış oyunlar və tamaşalar, məzhəkələr haqqında da məlumatlara təsadüf edilir. Bu məlumatlar da öz növbəsində Azərbaycan xalqının mənəvi mədəniyyətinin təkamülünü izləmək üçün əhəmiyyətlidir. Həmin məlumatlardan görünür ki, bu dövrdə Azərbaycanda daha çox hərbi idman növləri (ox-kaman və odlu silah atıcılığı, qılınc oynatma, atçapma, zorxana) mövcud idi. Bu idman növləri daha çox gənclər arasında yayılmışdı.

Beləliklə, Qərbi Avropa səyyahlarının adət-ənənələr, bayramlar, nigah, toy və dəfn mərasimləri, oyunlar və məzhəkələr haqqında məlumatları Azərbaycan xalqının məişət həyatının, mənəvi mədəniyyətinin üstünlüyünü, yüksək səviyyəsini də sübut edən faktlardır.

XV-XVII əsrlərdə Azərbaycan xalqının mədəni yüksəlişi fonunda incəsənət də inkişaf edirdi. Həm mənbə məlumatları, həm arxeoloji tədqiqat işlərinin nəticələri, həm də indiyədək qorunub saxlanmış bəzi maddi mədəniyyət nümunələri də bunu sübut edir. Yazılı və maddi mənbələr göstərir ki, bu dövrdə Azərbaycanda miniatür rəssamlığı, dekorativ, tətbiqi sənət növləri çoxəsrlik ənənələrə əsaslanırdı və müəyyən regional özəlliklərə malik idi.

Bu mərhələdə Azərbaycan incəsənətinin inkişaf göstəriciləri, baş verən dəyişikliklər Qərbi Avropa səyyahlarının əsərlərində də müəyyən dərəcədə əks olunmuşdur. Lakin həmin məlumatlar geniş deyil.

Təsviri sənət sahələri içərisində mənbələrdə daşişləmə sənəti daha geniş təsvir edilmişdir. Həmin sənətin başlıca növü həkkaklıq sayıla bilər. Səyyahların gündəliklərində məşhur türbələrə və sərdabələrə dair təsvirlərdən də görünür ki, bir çox hallarda yonma daşdan olan bu abidələr dəfn olunmuş insanın şəxsiyyətini, abidənin tarixini, memarın adını göstərən kitabələrlə bəzənirdi. Müsəlman həkkaklığının əsasını isə qrafik yazı, üslublaşdırılmış həndəsi və nəbati naxışlar təşkil edir. Ona görə də həkkaklıqla məşğul olanların əksəriyyəti həm də gözəl xəttat idi. Yazılı mənbə məlumatları təsdiq edir ki, orta əsrlərdə Azərbaycanda dekorativ-tətbiqi sənət növləri arasında mozaika da geniş yayılmışdı. Azərbaycanda dekorativ-tətbiqi sənətin geniş yayılmış sahələri içərisində bədii parça istehsalını və xalçaçılığı da xüsusi qeyd etmək olar.

Musiqi Azərbaycan milli mədəniyyətinin tərkib hissələrindən biri kimi XV-XVII əsrlərdə özünəməxsus cəhətlərə malik idi. Bu dövrdə xalq yaradıcılığı, ifaçılıq sənəti və aşıq yaradıcılığı formasında inkişaf edən musiqi sənəti Qərbi Avropa səyyahlarının gündəliklərində geniş təsvir olunur. Musiqiyə dair ən çox məlumat vermiş səyyahlar isə Azərbaycanın müxtəlif bölgələrində təşkil olunmuş saray ziyafətlərində, müxtəlif mərasimlərdə iştirak etmiş İ.Barbaro, E.Cenkinson, A.Oleari, J.Şarden və Y.Streys olmuşlar. Nəzərdən keçirilən dövrün Azərbaycan incəsənətinin ən müxtəlif sahələri də XV-XVII əsrlərin Qərbi Avropa müəlliflərinin əsərlərində öz əksini tapmışdır. Azərbaycanın dekorativ-tətbiqi sənət sahələri və musiqisi özündə yerli bədii-estetik ənənələri yaşadır, sinkretik mədəniyyətin inkişafında əhəmiyyətli rol oynayır və böyük bir regionun mədəni həyatında aparıcı, nümunəvi yer tuturdu. XVII əsrdən etibarən Azərbaycan mədəniyyəti müxtəlif səbəblərdən durğunluq dövrünə daxil oldu və bu durğunluq öz əksini incəsənətin bir çox sahələrində özünü büruzə verdi.

Dissertasiyanın **IV Fəsli "XV-XVII əsrlərdə Azərbaycan maarifi və elmi Qərbi Avropa səyyahlarının gündəliklərində"** adlanır və 3 paraqrafdan ibarətdir. Fəsildə başlıca diqqət məktəblərə, bu məktəblərdəki tədris üsullarının təhlilinə, həmçinin Azərbaycanda elmin müxtəlif sahələrinin inkişafına yönəldilmişdir.

Müsəlman dünyasının tərkib hissəsini təşkil edən Azərbaycan xalqının maarifi və elmi XV-XVII əsrlərdə İslam təhsil sistemində inkişaf edirdi. Azərbaycanın təhsil və elm ocaqları yalnız ölkənin deyil, bütün müsəlman

Şərqinin mədəniyyət mərkəzləri sayılırdı. Orta əsrlərdə dinin cəmiyyətdə aparıcı rol oynaması təhsilin təşkilinə və inkişafına öz təsirini göstərmişdi. Azərbaycanda da təhsil ocaqları əsasən dini mərkəzlərin (məscidlərin, türbələrin) nəzdində fəaliyyət göstərirdi. Bu ocaqlar başlıca olaraq mədrəsələr idi. Lakin Qərbi Avropa ölkələrindən fərqli olaraq, müsəlman Şərqində mədrəsələr dini təhsil verməklə kifayətlənmirdilər. Həmin məktəblər həm də dünyəvi təhsilin mərkəzləri idilər. Bu təhsil ocaqları zəngin kitabxanalarla, əlyazma nüsxələri ilə, kitab dükanları ilə, uzaq ölkələrdən gələn tələbələrin yaşayışı üçün zəruri olan qonaq otaqları, yeməkxana və hamamla təmin olunurdular. Mədrəsələrdə müxtəlif ictimai və dini səciyyəli tədbirlər keçirilirdi. Bəzi mədrəsələr isə müəyyən İslam təriqətlərinin yaylmasında mərkəz rolu oynayırdılar.

Adam Oleari, Yan Streys, Jan Şarden, Engelbert Kempfer kimi səyyahlar onlara verilmiş tapşırıqların məqsədlərindən asılı olmayaraq, bu ölkələrin elmi, maarifi, mədəniyyəti ilə də maraqlanırdılar. Məsələn, riyaziyyatçı, astronom, coğrafiyaçı Adam Oleari Holşteyn hersoqlarının sarayında kitabşünas, coğrafiyaçı, astronom, dilçi-alim kimi də fəaliyyət göstərmişdir. O, Avropa kitabxanalarını Şərq ölkələrindən gətirdiyi fars və ərəb dillərində tərtib olunmuş əlyazmalarla zənginləşdirmiş, Sədi Şirazinin "Gülüstan"ını alman dilinə tərcümə etmişdi. Əsasən diplomatik məqsədləri yerinə yetirmiş Ryui Qonsales de Klavixo, İosafat Barbaro, Ambrocco Kontarini, Uilyam Perri gördükləri gerçəkliklərə Adam Oleari kimi yanaşmaq qabiliyyətindən uzaq olmuşlar. Azərbaycanın orta əsr maarifi və elmi haqqında ümumiləşdirmələrdə Adam Oleariyə, Yan Streysə, Jan Şardenə daha çox istinad edilməsinin səbəbi də məhz budur.

Azərbaycan məktəblərində tədris olunan fənlər əsasən aşağıdakılar idi: qrammatika; ədəbiyyat; natiqlik (ritorika); riyaziyyat; coğrafiya və həndəsə; astronomiya və astrologiya; fizika; tibb; hüquq; tarix və fəlsəfə. Azərbaycan məktəblərində nəzəri biliklərlə yanaşı, təcrübi qabiliyyət də vacib idi. Sxolastikanın hökmran olduğu orta əsr Avropa məktəblərindən fərqli olaraq, Şərq məktəblərində əməli əhəmiyyəti olan elmlərə də böyük diqqət yetirilirdi.

XV-XVII əsrlərdə Azərbaycanda elmi biliklər geniş yayılmışdı. Mədrəsələrdə dini təhsillə yanaşı, dünyəvi biliklərin tədris olunması bu gerçəkliyin nəticəsi idi. K.Zeno Azərbaycan hökmdarı Uzun Həsənin nəinki istedadlı sərkərdə və diplomat, həm də dərin məlumatlı, elmə və mədəniyyətə xüsusi diqqət yetirmiş insan olduğunu göstərmişdir. Təhsil sahəsində olduğu kimi, elm sahəsindəki inkişaf göstəriciləri də Avropa səyyahları arasında daha çox elm xadimlərinin gündəliklərində öz əksini tapmışdır. Bu sahədə Adam

Oleari xüsusilə fərqlənirdi. Olearinin əsərinin bir fəsli Azərbaycanda astronomiya elminin inkişafı məsələlərinə həsr olunmuşdur.[1]

XV-XVII əsrlərin Azərbaycan ədəbiyyatı haqqında bu dövrün Qərbi Avropa səyyahlarının əsərlərində xeyli məlumat vardır. Adam Olearinin məlumatları onların içində əsas yeri tutur. O, Şərq poeziyasına dair qısa məlumat verdikdən sonra "İran şairləri və onların şeirləri" adlı ayrıca bölmədə Azərbaycan ədəbiyyatı, o cümlədən türkdilli poeziya haqqında ətraflı bəhs etmişdir. Bu məlumatdan da görünür ki, Şərq ədəbiyyatı, o cümlədən bu dövrdə artıq üstünlük qazanmış türkdilli Azərbaycan ədəbiyyatı özündə fəlsəfi və siyasi mənaları da daşıdığına görə, elm xadimləri və müdrik insanlar hətta ziyafətlərdə də bu fəlsəfənin gücündən istifadə edirdilər.

Bu dövrdə Azərbaycanda tarix daha çox salnamələr şəklində yazılırdı. Bu tip əsərlər üçün isə təsvirçilik, hadisələrin təhlilindən uzaqlaşmaq, bəzən isə hökmdar siyasətinin mədh edilməsi səciyyəvidir. Bu, Qərb tarix elminin üstünlükləri qarşısında Şərq tarix elminin qüsuru hesab edilə bilər. Bu dövrdə Azərbaycan ədəbi və fəlsəfi fikri, tarix elmi sabit inkişaf etməmişdir. Əgər XV-XVII əsrlər Azərbaycan poeziyasının yüksəlişi, türk dilinin üstünlüyü, fəlsəfi fikir tariximizdə panteizmin davamı dövrüdürsə, bunu tarix elmi haqqında söyləyə bilmərik. Həmin dövrdə tarix elmi daha çox farsdilli ədəbiyyatın təsiri altında idi və müstəqil inkişaf edə bilməmişdi. Bununla yanaşı, məhz bu dövrdə Həsən bəy Rumlu və İsgəndər bəy Münşi kimi Azərbaycan tarixçilərinin fəaliyyəti mədəniyyət xəzinəmizi xeyli zənginləşdirirdi.

Bu dövrdə Azərbaycan ədəbiyyatı, onunla sıx bağlı olan fəlsəfə, tarix elmi görkəmli nümayəndələrini yetirdi. Onların əsərləri, təlimləri və zəngin irsi sonrakı yüzilliklər üçün möhkəm təməl yaratmışdı. Azərbaycan elmi XV-XVII əsrlərdə də öz potensialını qoruyub saxlamışdı.

Dissertasiyanın **"Nəticə"** hissəsində araşdırmaya yekun vurulmuş, ümumiləşdirmələr aparılmış və elmi nəticələrə gəlinmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1. Orta əsrlər Azərbaycan mədəniyyəti səyyah gündəliklərində/ Altay dünyası. Beynəlxalq jurnalı, B., 1999, N 5-6, s.134-142


[1]Подробное описание путешествия Гольштинского Посольства в Московию и Персию в 1633, 1636 и 1639 гг., составленное секретарем посольства Адамом Олеарием, s.829-829

2. Azərbaycan xalqının adət-ənənələri səyyah gündəliklərində/ Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2001, N 3, s. 163-179
3. XVII əsr Azərbaycanın maarif və mədəniyyəti Adam Olearinin “Səyahətnaməsi”ndə/ Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2002, N 2, s. 189-197
4. Böyük ipək yolu, Azərbaycan və Azərbaycan ipəyi / Filologiya məsələləri, B., 2002, N 2
5. Hollandiya səyyahı Yan Streys Novruz bayramı haqqında / Aspirantların və gənc tədqiqatçıların IX Respublika elmi konfransının materialları, B., 2003, s.5
6. Böyük İpək yolu və Azərbaycanın xarici ticarət əlaqələrində ipək problemi (həmmüəllif)/ Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2003, N 2, s.235-241
7. Azərbaycan xalqının toy adətləri və məişəti alman səyyahı M.Tektanderin məlumatlarında/ “Şərqin aktual problemləri”. Akademik Z.M.Bünyadovun xatirəsinə həsr olunmuş beynəlxalq elmi-nəzəri konfransda məruzə. Bakı, 2003, s.80
8. Azərbaycanın Novruz və Qurban bayramları holland səyyahı Y.Streysin məlumatlarında/ Ümummilli əbədi liderimiz Heydər Əliyevin əziz xatirəsinə və 28 may Respublika gününə həsr olunmuş “Dünyada yeni inkişaf meylləri istiqamətində türk dünyası, Azərbaycan və Türkiyə” beynəlxalq elmi-praktik simpuziumunda məruzə. Bakı. 2004, s.229
9. XV- XVII əsr Qərbi Avropa elçilərinin Azərbaycanda qarşılanması səyyah gündəliklərində/ Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2005, N 3, s. 158-168
10. XVII əsr Azərbaycan mədəniyyəti (Adam Olearinin “Səyahətnaməsi” əsasında)/ Bakı Dövlət Univeritetinin 90 illik yubileyi münasibətilə Tarix fakültəsi əməkdaşlarının elmi praktik konfransı. B., 2009, s. 267-274
11. Путешествие Яна Стрейса – источник по историиЮжного Кавказа/ Сборник научных статей II международной научно-практической конференции. Кизляр. 2010, s. 147-151
12. XV-XVI əsrlərdə Azərbaycan mədəniyyətinin inkişafında türkdilli ədəbiyyatın roluna dair/ Türk dünyası dünəni və bu günü (Beynəlxalq elmi konfrans). Bakı 2011, s. 306

13. XV-XVII əsrlərdə Azərbaycanda maarif və elm Avropa səyyahlarinin gündəliklərində/ Tarix və müasirlik, 1/2012, s.57-66
14. Средневековое изобразительное искусство и музыка Азербайджана в дневниках западноевропейских путешетвенников/ Гилея. Научный вестник. Выпуск 69 (№ 2), Киев, 2013 с.324-328

**С.Ч.Мехтизаде**

**Культурная жизнь Азербайджана в дневниках западноевропейских путешественников (XV-XVII века)**

**Резюме**

Диссертация посвящена проблемам освещения западноевропейскими путешественниками XV-XVII вв. культурной жизни средневекового Азербайджана. Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во **Введении** обоснованы актуальность и хронологические рамки исследования, даны краткий историографический обзор и источниковая база проблемы. Также определены цель и задачи исследования, указаны ее научная новизна, теоретическое и практическое значение.

**Глава первая** называется “**Историография и источниковедческая база проблемы**” и состоит из двух параграфов. В этой главе соответственно рассматриваются степень изучаемости проблемы освещения западноевропейскими путешественниками XV-XVII вв. культурной жизни средневекового Азербайджана, историографические и источниковедческие моменты изучаемой проблемы.

**Глава вторая** под названием “**Материальная культура азербайджанского народа в дневниках западноевропейских путешественников XV-XVII вв.**” состоит из четырех параграфов. В главе исследуются основные стороны материальной культуры азербайджанского народа на основе материалов западноевропейских источников.

**Глава третья** называется “**Духовная культура Азербайджана в дневниках западноевропейских путешественников**” и состоит из трех параграфов. В этой главе исследованы история развития духовной культуры средневекового Азербайджана и основные моменты ее освещения запаноевропейскими путешественниками.

**Глава четвертая** под названием “**Образование и наука Азербайджана в дневниках западноевропейских путешественников XV-XVII вв.**” также состоит из трех параграфов. В этой главе на основе материалов западных источников освешены проблемы системы образования и развития науки Азербайджана в XV-XVII вв.

В **заключении** диссертации подведен итог проведенного исследования, сформулированы общие выводы, вытекающие из данной работы.

**S. Ch. Mehdizadeh**

## The Cultural Life of Azerbaijan in the Diaries of the West- European Travelers (XV-XVII centuries).
## Summary

This thesis is dedicated to problems of the Azerbaijani medieval cultural life, elucidated by the West- European travelers in XV-XVII centuries. The thesis consists of a preface, three chapters, a conclusion and a reference list.

In the **preface**, an actuality and chronological frames of the investigation basis, a brief historiographical review and source base of the problem are given. The investigation purpose and tasks' determination, scientific novelty, theoretical and practical importance of the investigation have been pointed out as well.

**The first chapter** is called "The Historiography and Source Studies' Base of the Problem" and consists of two sections. In this chapter the studying level of the elucidation problem of the Azerbaijani medieval cultural life by the West- European travelers, in XV-XVII centuries, historiographical and source studying instants and studied problems are correspondingly scrutinized.

**The second chapter** is under the title of "The Material Culture of the Azerbaijani People in West- European Travelers' Diaries of XV-XVII centuries" and consists of four sections. In the chapter the main sides of the material culture of the Azerbaijani nation on the basis of West –European force materials are searched.

**The Third chapter** is called" The Spiritual Culture of Azerbaijan in the Diaries of the West-European Travelers" and consists of three sections. In this chapter the history of the development of the Azerbaijani medieval spiritual culture and main instants of its elucidation by West European travelers are investigated.

**The fourth chapter** "The Education and Science of Azerbaijan in the Diaries of the West European Travelers in XV-XVIIcenturies" also consists of three sections. In this chapter, on the basis of the Western sources' materials, the problems of the Azerbaijani education system and science progress in XV- XVII centuries have been elucidated.

**In the conclusion** of the thesis the investigation has been summed up and common conclusions, running out of this work, have been formulated.

Əla növ kağız, formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

---

*На правах рукописи*

**САЯД ЧИНГИЗ гызы МЕХТИЗАДЕ**

# КУЛЬТУРНАЯ ЖИЗНЬ АЗЕРБАЙДЖАНА В ДНЕВНИКАХ ЗАПАДНОЕВРОПЕЙСКИХ ПУТЕШЕСТВЕННИКОВ (XV-XVII ВЕКА)

**Специальность: 5502.01 – Всеобщая история**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени
доктора философии по истории**

**Баку – 2015**